Xalq Bank

ASC "Xalq" Bankının
Müşahidə Şurasının
29 iyul 2024-cü il tarixli
Qərarı ilə təsdiq edilmişdir
(Protokol № 88)

Müşahidə Şurasının sədri

______________A.M.Məmmədli

# ASC "Xalq" Bankında Risklərin idarə edilməsi SİYASƏTİ

**Sənədin nömrəsi: XB-S/21**

**Versiya: 02**

**Bakı – 2024**

# MÜNDƏRİCAT

1. **Ümumi müddəalar** ..... 3
2. **Əsas anlayışlar** ..... 3
3. **Risklərin idarə edilməsinin komponentləri və prinsipləri** ..... 4
4. **Risklərin təsnifatı** ..... 7
5. **Risklərin idarə edilməsi sistemi** ..... 18
6. **Bankın Risk İştahası Bəyannaməsi** ..... 18
7. **Risk Limitləri** ..... 19
8. **Yeni məhsul və xidmətlər üzrə risklərin idarə edilməsi** ..... 19
9. **Risklərin idarə edilməsinin təşkilati strukturu** ..... 19
10. **Risklərin idarə edilməsi sisteminin müdafiə xətləri** ..... 25
11. **Fövqəladə hallar planı** ..... 26
12. **Məsuliyyət** ..... 26
13. **Yekun müddəalar** ..... 26

## 1. Ümumi müddəalar

**1.1.** “ASC “Xalq” Bankında Risklərin idarə edilməsi Siyasəti” (bundan sonra – “Siyasət” ) aşağıdakıların təmin edilməsi məqsədilə hazırlanmışdır:

- ASC “Xalq” Bankında (bundan sonra – Bank) risklərin idarə edilməsi prosesinin ümumi istiqamətləri, komponent və prinsiplərinin, Bankın risklərin idarə edilməsi sisteminin əsas elementlərinin, risklərinin idarə edilməsi strukturunun müəyyən edilməsi.

**1.2.** Siyasətin əhatə dairəsi.

- Risklərin idarə edilməsi sisteminin elementi olmaqla, Bankda risklərin idarə edilməsi işinin təşkilini, o cümlədən səlahiyyətlərin bölgüsünü, Bankın fəaliyyət növləri, biznes prosesləri və informasiya sistemləri üzrə risklərin idarə edilməsi prosesini, habelə yeni fəaliyyət növləri və informasiya sistemlərinin tətbiq edilməsinə Bankın risk yanaşmasını əhatə edir.

**1.3.** Siyasət aşağıdakı sənədlər və mənbələr əsasında hazırlanmışdır:

- “Banklar haqqında”Azərbaycan Respublikasının Qanunu;
- Azərbaycan Respublikasının Mərkəzi Bankının “Banklarda korporativ idarəetmə Standartları”;
- Risklərin idarə edilməsi sahəsində beynəlxalq təcrübə.

**1.4.** Bu Siyasət Riskləri İdarəetmə Komitəsi tərəfindən ildə bir dəfədən az olmayaraq nəzərdən keçirilir və zəruri hallarda müvafiq dəyişikliklər edilir.

**1.5.** Bankda risklərin idarə edilməsinə dair qəbul olunan digər bankdaxili normativ-metodoloji sənədlər bu Siyasətin müddəalarına uyğun tərtib olunmalıdır.

## 2. Əsas anlayışlar

**2.1.** Bu Siyasətdə istifadə olunan anlayışlar aşağıdakılardır:

**2.1.1.** Risk – ehtimal olunan və ya gözlənilməz hadisələrin baş verməsi nəticəsində yaranan xərclərin (zərərin) Bankın kapitalına və likvidlik mövqeyinə mənfi təsir göstərməsi ehtimalı;

**2.1.2.** Risklərin idarə edilməsi sistemi – risklərin idarə edilməsi üzrə bu Siyasət ilə müəyyən edilmiş elementlərdən ibarət sistem;

**2.1.3.** Risklərin idarə edilməsi - Bankın fəaliyyətinə xas olan risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, idarə olunması, monitorinqi və onlar üzrə hesabatlığı əks etdirən proses;

**2.1.4.** Risk profili- Bankın məruz qaldığı risklərin ümumiləşdirilmiş səviyyəsi;

**2.1.5.** Biznes bölmələri – Bankın fəaliyyətinin ayrı-ayrı növlərini həyata keçirən və risk yaradan bölmələr;

**2.1.6.** Risk iştahası – Bankın strateji hədəflərinə çatması üçün riskgötürmə qabiliyyəti çərçivəsində qəbul

etmək istədiyi riskin həcmi;

**2.1.7.** Risk matrisi -Bankda risk hadisəsinin baş vermə ehtimalı ilə onun təsir dərəcəsinin kəsişməsinə əsaslanan L tipli cədvəl;

**2.1.8.** Riskgötürmə qabiliyyəti- kapital, likvidlik və digər prudensial tələbləri pozmamaq şərtilə Bankın götürə biləcəyi riskin maksimum həcmi;

**2.1.9.** Risk mədəniyyəti- Bankın riskin müəyyən edilməsi, riskin qəbulu və idarəedilməsi, habelə risk üzrə qərarların qəbul edilməsi üzrə norma, yanaşma və davranışların məcmusu;

**2.1.10.** Risk sahibi- Müəyyən edilmiş risk üzrə cavabdehlik daşıyan şəxs və ya struktur bölmə;

**2.1.11.** Maraqlı tərəflər - Bankın səhmdarları, inzibatçıları, işçi heyəti, kreditorları, habelə nəzarət orqanları və beynəlxalq nüfuzlu reytinq agentlikləri ;

**2.1.12.** Dözümlülük (Tolerance)- Bankın məqsədlərinə çatması üçün qəbul edilə bilən risk dərəcəsi;

**2.1.13.** Riskə məruz qalma – Bankın biznes fəaliyyəti, yaxud risk hadisəsi nəticəsində üzləşdiyi risk miqdarı;

**2.1.14.** Risk hadisəsi- Risk üçün əsas olacaq hadisə və ya yaranan hal;

**2.1.15.** Riskə cavab- Riskin aradan qaldırılması istiqamətində dörd seçimdən - riskin qəbul edilməsi, ötürülməsi, qarşısının alınması, azaldılması seçimlərindən birinin müəyyən edilməsi;

**2.1.16.** İnformasiya sistemi-İnformasiya texnologiyaları və sənədlərinin təşkilati və texniki qaydada, o cümlədən hesablama texnikasından istifadə edilməklə nizamlanmış məcmusu.

## 3. Risklərin idarə edilməsi prosesinin komponentləri və prinsipləri

**3.1. Risklərin idarə edilməsi prosesinin komponentləri.** Bankda risklərin idarə edilməsi prosesi risklərin azaldılması ilə dəyərin artırılması istiqamətində bir-biri ilə əlaqəli komponentlər və prinsiplər əsasında təşkil edilmişdir. Risklərin idarə edilməsi prosesinin komponentləri Bankın missiya, baxışına və dəyərlərinə uyğun müəyyən edilməlidir. Risklərin idarə edilməsi prosesinin bu Siyasətlə müəyyən edilən bir-biri ilə əlaqəli beş əsas komponenti mövcuddur:

**3.1.1.** **İdarəetmə və Risk mədəniyyəti** - Siyasət risklərin idarə edilməsi sisteminin təşkili və onun elementlərinin təmin edilməsi, risklərin idarə edilməsinin təşkilati strukturu və səlahiyyət bölgüsü, bütün müdafiə xətləri üzrə risk mədəniyyətinin formalaşdırılmasının əsasını təşkil edir.

**3.1.2.** **Strategiya və məqsədlərə uyğunluq**- Risklərin idarə edilməsi fəaliyyəti Bankın biznes strategiyası və məqsədləri ilə uyğunlaşdırılmalıdır.

**3.1.3.** **Fəaliyyət (Performans)** - Bankın hər bir müdafiə xətti aidiyyatı üzrə risklərin idarə edilməsi prosesində iştirak etməli, Bankın biznes strategiyası və məqsədlərinə mənfi təsir edə biləcək risklər, risk sahibləri müəyyən edilməli risklər təsnifləşdirilməli və riskin azaldılmasına dair tədbirlər görülməlidir.

3.1.4. **Davamlı təkmilləşdirmə-** Risklərin idarə edilməsi Bankın fəaliyyətinə təsir edə biləcək daxili və kənar amillərdən asılı olaraq, qabaqcıl təcrübələr də nəzərə alınmaqla mütəmadi olaraq nəzərdən keçirilən və müntəzəm təkmilləşdirmə tələb edən kompleks prosesdir.

3.1.5. **Şəffaflıq, hesabatlılıq və kommunikasiya-**Risklərin idarə edilməsi üzrə müdafiə xətləri arasında daimi kommunikasiya təşkil edilməli, məlumatlar həm bankdaxili, həm də bankxarici maraqlı tərəflərə mötəbərlik, anlaşıqlılıq, operativlik, əhəmiyyətlilik, aktuallıq, müqayisəlilik kimi prinsiplər əsasında açıqlanmalıdır. Məlumatlar açıqlanarkən şəffaflıq və kommersiya maraqlarının qorunması arasında tarazlıq saxlanılmalıdır.

**3.2. Risklərin idarə edilməsi prosesinin prinsipləri.** Risklərin idarə edilməsi prosesi onun komponentləri ilə əlaqəli prinsiplər əsasında təşkil edilmişdir. Bu prinsiplərin hər biri Bankın bütün səviyyələri üzrə risklərin idarə edilməsində qərar qəbuletmə prosesinin optimal və düzgünlüyünə nail olmağı hədəfləyir. Risklərin idarə edilməsi prosesinin prinsipləri aşağıdakı kimidir:

**3.2.1. Müşahidə Şurasının risklərə nəzarəti-** Müşahidə Şurası Bankın strategiyasına nəzarəti həyata keçirir, İdarə Heyətinə Bankın strategiya və biznes məqsədlərinə çatmaq üçün lazımi şəraitin yaradılmasını təmin edir.

**3.2.2. Fəaliyyət strukturlarının yaradılması-** Bankda strateji və biznes məqsədlərinə effektiv və səmərəli şəkildə nail olmaq üçün müvafiq hüquqi baza, sistemlər, tədbirlər və s. təşkil edilir.

**3.2.3. Arzuolunan Risk mədəniyyətinin formalaşdırılması-** Bankda arzuolunan risk mədəniyyəti səviyyəsini ehtiva edən davranışlar müəyyən edilir.

**3.2.4. Dəyərlərə bağlılıq-** Bank özünün əsas dəyərlərinə bağlılığını göstərir.

**3.2.5. Peşəkar mütəxəssislərin cəlb edilməsi, inkişaf etdirilməsi və loyallığın artırılması-** Bankda strateji hədəflərə və məqsədlərə çatmaq üçün peşəkar mütəxəssislərin cəlb edilməsinə, işçilərin bilik və bacarıqlarının təkmilləşdirilməsi və loyallığı üçün lazımi şərait yaradılır.

**3.2.6. Biznes fəaliyyətinin analiz edilməsi-** Bankda biznes fəaliyyətinin ehtimal edilən təsiri müvafiq risk profilləri üzrə təhlil edilir.

**3.2.7. Risk iştahasının müəyyən edilməsi-** Dəyər yaratmaq, onu qorumaq və həyata keçirmək üçün müvafiq risk iştahası müəyyən edilir.

**3.2.8. Alternativ strategiyaların qiymətləndirilməsi-** Alternativ strategiyaların və onların risk profilinə potensial təsirləri qiymətləndirilir.

**3.2.9. Biznes məqsədlərin təyin edilməsi-** Bankda strategiyaya uyğun olaraq biznes məqsədləri təyin edilərkən müvafiq risklər nəzərə alınır.

**3.2.10. Riskin müəyyən edilməsi-** Bankın strategiya və biznes məqsədlərinin yerinə yetirilməsinə təsir edən risklər müəyyən edilir.

**3.2.11. Riskin ciddiliyinin qiymətləndirilməsi-** Riskin şiddəti qiymətləndirilir.

**3.2.12. Riskin prioritetləşdirilməsi-** Bankda riskə cavab vermə üçün risklər prioritetləşdirilir.

3.2.13. **Riskə cavab tədbirlərinin həyata keçirilməsi-** Müvafiq risklərə uyğun olaraq riskə cavab mexanizmi müəyyən edilir və seçilir.

3.2.14. **Risk portfelinin hazırlanması-** Bankda müəyyən edilmiş risklərə uyğun olaraq risk portfeli hazırlanır və qiymətləndirilir.

3.2.15. **Əhəmiyyətli dəyişikliklərin qiymətləndirilməsi-** Strategiya və biznes məqsədlərinə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək dəyişikliklər müəyyən edilir və qiymətləndirilir.

3.2.16. **Risk və fəaliyyətin nəzərdən keçirilməsi-** Biznes fəaliyyətlər izlənilir və müvafiq risklər nəzərə alınır.

3.2.17. **Risklərin idarə edilməsi üzrə davamlı təkmilləşdirilmə-** Risklərin idarə edilməsi sistemi müntəzəm olaraq izlənir və lazımi təkmilləşdirmə işləri aparılır.

3.2.18. **İnformasiya sistemlərindən istifadə olunması-** Risklərin idarə edilməsi prosesinin məqsədləri üçün informasiya və texnologiya sistemlərindən istifadə edilir.

3.2.19. **Risklərin idarə edilməsi üzrə kommunikasiyanın təmin edilməsi-** Risklərin idarə edilməsi prosesinin məqsədləri üçün Bankın məlumatlandırma, kommunikasiya kanallarından istifadə edilir.

3.2.20. **Risk, risk mədəniyyəti və fəaliyyətlə bağlı hesabatlılığın qurulması-** Bankın bütün səviyyələri üzrə risk, risk mədəniyyəti və fəaliyyətlə bağlı hesabatlılıq təmin edilir.

**3.3. Risklərin idarə edilməsi prosesinin komponentləri və prinsiplərinin qarşılıqlı əlaqəsi belədir:**

| 1. İdarəetmə və Risk mədəniyyəti | 2. Strategiya və məqsədlərə uyğunluq | 3. Fəaliyyət | 4. Davamlı təkmilləşdirmə | 5. Şəffaflıq və Kommunikasiya |
|---|---|---|---|---|
| 1. Müşahidə Şurasının risklərə nəzarəti | 6. Biznes fəaliyyətinin analiz edilməsi | 10. Riskin müəyyən edilməsi | 15. Əhəmiyyətli dəyişikliklərin qiymətləndirilməsi | 18. İnformasiya sistemlərindən istifadə |
| 2. Fəaliyyət strukturlarının yaradılması | 7. Risk iştahasının müəyyən edilməsi | 11. Riskin ciddiliyinin qiymətləndirilməsi | 16. Risk və fəaliyyətin nəzərdən keçirilməsi | 19. Risklərin idarə edilməsi üzrə kommunikasiyanın təmin edilməsi |
| 3. Arzuolunan Risk mədəniyyəti | 8. Alternativ strategiyaların qiymətləndirilməsi | 12. Riskin prioritetləşdirilməsi | 17. Risklərin idarə edilməsi üzrə davamlı təkmilləşdirilmə | 20. Risk, risk mədəniyyəti və fəaliyyətlə bağlı hesabatlılıq |
| 4. Dəyərlərə bağlılıq | 9. Biznes məqsədlərin təyin edilməsi | 13. Riskə cavab tədbirlərinin həyata keçirilməsi | | |
| 5. Peşəkar mütəxəssislərin cəlb edilməsi, inkişaf etdirilməsi və loyallığı | | 14. Risk portfelinin hazırlanması | | |

## 4. Risklərin təsnifatı

**4.1.** Bu Siyasətdə risklərin idarə edilməsi fəaliyyəti çərçivəsində risklərin təsnifatı aparılmışdır. Risklərin idarə edilməsində yerinə yetirilən nəzarət tədbirləri və istifadə edilən alətlər (burada qeyd edilənlərlə məhdudlaşmayaraq) aşağıdakı qaydada təsnifləşdirilmişdir:

**4.1.1. Kredit riski** – Borcalanın, emitentin və ya kontragentin Bank qarşısında öhdəliyinin müqavilə şərtlərinə uyğun olaraq vaxtında və ya tam icra edə bilməməsi nəticəsində yaranır. Buraya ödənişlərin gecikdirilməsi, borcalanın iflası və s. hallar daxildir.

| Kredit riskləri üzrə nəzarət tədbirləri | Kredit risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • Kredit portfelinin kəmiyyət və keyfiyyət göstəriciləri üzrə qiymətləndirilməsi;<br>• Kredit portfelinin effektiv idarə edilməsi məqsədilə limitlərin təyin olunması və Bankın risk iştahasına daxil edilməsi;<br>• Erkən xəbərdarlıq hesabatlılıq sisteminin təşkili;<br>• Aktivlərin təsnifatı üzrə ehtiyatın yaradılması;<br>• Qeyri-işlək kredit portfelinin idarə edilməsi;<br>• Verilmiş kreditlərin mütamadi olaraq monitorinqinin aparılması. | • Riskə məruz portfel iflasa ekvivalent risk;<br>• “vintaj” təhlili;<br>• Keçid matrislər;<br>• Ssenari analizi / “What-if?”(“Əgər ... Baş versə?”) Təhlili;<br>• Stress-test modellər;<br>• LGD (Loss given default);<br>• Həssaslıq testləri;<br>• Modelləşdirmə və proqnozlar;<br>• Yeni kredit məhsullarının kredit riski baxımından qiymətləndirilməsi. |

**4.1.2. Bazar riski** - Faiz dərəcələrinin, valyuta məzənnələrinin, qiymətli kağızların və əmtəələrin dəyərində baş verən dəyişikliklərlə əlaqədar yaranan risklərdir. Bazar riskinin aşağıdakı alt kateqoriyaları mövcuddur:

- *Faiz dərəcəsi riski* - Faiz dərəcələrinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk:

| Faiz riskləri üzrə nəzarət tədbirləri | Faiz risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • Risk dərəcəsinin hesablanması;<br>• Faiz dərəcələrinin dəyişməsi və/ya ehtimal olunan dəyişkənliyin nəticəsində yarana biləcək riskin təhlili<br>• Monitorinq;<br>• Nəzarət üsulları və hesabatlılıq sistemi. | • Gap analizi;<br>• Ssenari təhlili;<br>• Stress-test modellər;<br>• Həssaslıq testləri. |

- *Valyuta riski* – Xarici valyuta məzənnələrinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk:

| Valyuta riskləri üzrə nəzarət tədbirləri | Valyuta risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • Təyin olunmuş limitlərə nəzarət məqsədilə gündəlik olaraq xarici valyutalarda olan açıq mövqelərin təhlilinin aparılması və gündəlik hesabat hazırlanması;<br>• Bankın açıq valyuta mövqeyinə və valyuta mübadiləsinin maliyyə nəticələrinə nəzarət;<br>• xarici valyuta risklərinin Bankın kapitalına təsirinin təhlili. | • Gap analizi;<br>• Riskə məruz dəyər modeli;<br>• Limitlərin təyin edilməsi;<br>• Stress-test modellər;<br>• Həssaslıq testləri. |

- *Kapital riski* - Bankın aldığı qiymətli kağızların dəyərinin əlverişsiz dəyişməsi ilə əlaqədar yaranan risk:

| Kapital riskləri üzrə nəzarət tədbirləri | Kapital risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
| --- | --- |
| • Kapital riski üzrə limitlərin təyin edilməsi və Müşahidə Şurası tərəfindən təsdiqlənməsi;<br>• Təyin edilmiş limitlərə mütəmadi olaraq nəzarət edilməsi;<br>• Qiymətli kağızlara investisiya təklifinin qiymətləndirilməsi üzrə rəylərin verilməsi. | • Riskə məruz dəyər modeli;<br>• Ssenari təhlili;<br>• Həssaslıq testləri. |

- *Investisiya riski*- İnvestisiya və ya portfelin dəyərinin azalması potensialı ilə bağlı risklər:

| Investisiya riskləri üzrə nəzarət tədbirləri | Investisiya risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
| --- | --- |
| • Səhm və İstiqrazların dəyərinin dəyişməsi, gəlirlik əyrilərinin və s. nəzərdən keçirilməsi;<br>• Qiymətli kağızların bazar risklərindən formalaşan riskə məruz dəyərinin hesablanması. | • Riskə məruz dəyər modeli;<br>• Ssenari təhlili;<br>• Stress-test modellər;<br>• Həssaslıq testləri. |

**4.1.3. Likvidlik riski** - Bu risk planlaşdırılmış və gözlənilməyən öhdəliklərin vaxtında və effektiv yerinə yetirə bilməməsi nəticəsində yaranır. Likvidlik riski bir sıra ağlabatan ssenarilər altında 1-3 il müddətində həm əməliyyat ehtiyaclarını, həm də strateji məqsədləri qarşılamaq üçün kifayət qədər dövriyyə kapitalının olmamasıdır:

| Likvidlik riskləri üzrə nəzarət tədbirləri | Likvidlik risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • Likvidliyin seçilmiş metodlar və modellər üzrə təhlili və göstəricilərinin monitorinqi;<br><br>• Risk yaradan risk indikatorları üzrə təhlillərin aparılması;<br><br>• Likvidlik riskinin vəziyyətinə və ölçüsünə təsir göstərən bankdaxili prosedurların struktur bölmələrinin əməkdaşları tərəfindən icrası üzərində daimi nəzarət;<br><br>• Erkən xəbərdarlıq sistemi vasitəsilə likvidlik riskinin daimi monitorinqinin aparılması;<br><br>• Bankın fəaliyyətinin təsdiqlənən likvidlik normativləri çərçivəsində həyata keçirilməsinə nəzarət;<br><br>• Likvidlik üzrə Stress Testlər və Şok Hadisələrin təhlili;<br><br>• Maliyyələşmədə konsentrasiyanın müəyyənləşdirilməsi;<br><br>• Valyutalar üzrə likvidliyin və ödənişlərin təhlili;<br><br>• Likvidlik riskinin minimallaşdırılması üçün müvafiq tədbirlərin icrasına nəzarət;<br><br>• Hər bir valyuta üzrə proqnozlaşdırılan nağd vəsaitlərin axınına nəzarət. | • Likvidlik əmsalları ( ani və cari likvidlik əmsalları, LCR (Liquidity coverage ratio), NSFR(Net stable funding ratio) və s.)<br><br>• Gap analizi;<br><br>• Erkən xəbərdarlıq limitləri<br><br>• Ssenari təhlili;<br><br>• Stress-test modellər;<br><br>• Həssaslıq testləri. |

**4.1.4. Əməliyyat riski -** Daxili proseslərin düzgün təşkil olunmaması nəticəsində yaranan boşluqlar, insan və sistem xətaları, hüquqi risk habelə bankdankənar hadisələrlə əlaqədar yaranan itki riskidir. Bu risk Bank əməkdaşları tərəfindən yol verilmiş nöqsan və səhvlər, informasiya sistemi və texnologiyalarda baş vermiş problem və çatışmazlıqlar, habelə bankdankənar hadisələrlə əlaqədar yaranır. Əməliyyat riskinin aşağıdakı alt kateqoriyaları mövcuddur:

- *İnsan resursu riski* - Bankın əməkdaşları tərəfindən bilərəkdən və ya bilmədən Bank əməliyyatlarının həyata keçirilməsi zamanı mövcud hüquqi aktların pozulması, səhv və nöqsanlara yol verilməsi nəticəsində yaranan risk;

| İnsan resursu riskləri üzrə nəzarət tədbirləri | İnsan resursu risklərinn idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • Namizədlərin seçilməsi və işə qəbulu üzrə Bankdaxili qayda və yoxlanışların tətbiqi;<br>• Əməkdaşların kadr təhlükəsizliyi məsələlərinə, bankdaxili etik davranış qaydalarına, biznes proseslərin qurulması və aparılmasına, müvafiq məlumatların qorunmasına dair təlimatlandırılması;<br>• Mütəmadi olaraq daxili araşdırmaların aparılması;<br>• Yeni əməkdaşların adaptasiya dövrü ərzində müvafiq məlumatlandırmaların aidiyyatı struktur bölmələr tərəfindən təmin edilməsi. | • Bank sirrinin pozulmasının qarşısının alınması məqsədilə preventiv tədbirlərin görülməsi;<br>• Əməliyyatlarda "dörd göz" prinsipinə uyğun nəzarət mexanizmlərinin qurulması;<br>• Əməliyyat riskləri üzrə limitlərin təyin edilməsi və mütəmadi nəzərdən keçirilməsi;<br>• Görüşlər təşkil edərək strukturlarla birgə müzakirələr aparılması;<br>• Biznes proseslərin monitorinqi və təhlil olunması;<br>• Daxili Audit hesabatlarını nəzərdən keçirilməsi;<br>• Bankdaxili qaydaların əməliyyat riski nöqteyi nəzərdən qiymətləndirilməsi;<br>• Müştəri şikayətlərinin analiz olunması;<br>• Daxili nəzarət sistemlərinin təhlil olunması;<br>• İşçilər arasında aparılmış iş bölgüsünün adekvatlılığının təhlil olunması;<br>• Bankda istifadə olunan informasiya sistemlərində silinən və/və ya düzəliş edilən əməliyyatların təhlil olunması. |

- *İnformasiya texnologiyaları riski* - Bankın informasiya sistemi və ya texnologiyalarında baş verən problemlərlə əlaqədar yaranan risk;

| İnformasiya texnologiyaları riski üzrə nəzarət tədbirləri | İnformasiya texnologiyaları risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • İT proseslərin qəbul edilmiş beynəlxalq standartlara uyğunluğunun yoxlanılması;<br>• Səlahiyyət və qərar qəbul etmə limitlərinin qəbul edilməsi və tətbiqi;<br>• Bank sistemləri üzrə buraxılış rejimi matrislərinin tərtib edilməsi və nəzarətin həyata keçirilməsi;<br>• İT risk göstəricilərinin qeydiyyatı və mütəmadi monitorinq olunması;<br>• İT üzrə risk insidentlərinin qeydə alınması, araşdırılması və monitorinqi. | • Əməliyyatlarda "dörd göz" prinsipinə uyğun nəzarət mexanizmlərinin qurulması;<br>• Əməliyyat riskləri üzrə müvafiq səlahiyyət bölgüləri, limitlərin təyin edilməsi və mütəmadi nəzərdən keçirilməsi;<br>• Daxili /kənar audit hesabatlarının nəzərdən keçirilməsi;<br>• bankdaxili normativ sənədlərin əməliyyat riski nöqteyi nəzərdən qiymətləndirilməsi;<br>• "Service Desk" moduluna edilmiş müraciətlərin təhlil olunması;<br>• Daxili nəzarət sistemlərinin təhlil olunması;<br>• Bankın aidiyyatı strukturları tərəfindən periodik təqdim edilən hesabatların təhlil olunması. |

- *Hüquqi risk* - Hüquqi aktların tələblərinin pozulması, tam, vaxtında və ya düzgün tətbiq edilməməsi, Bankın daxili qaydalarının qəbul edilməməsi, habelə daxili qaydalarda ziddiyyət və boşluqlar nəticəsində yaranan risk;

| Hüquqi risklər üzrə nəzarət tədbirləri | Hüquqi risklərin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • Bankın qəbul edə biləcəyi hüquqi risk limitlərinin risk iştahasında nəzərə alınması;<br>• Səlahiyyət və qərar qəbul etmə sisteminin qurulması;<br>• Əməliyyat riski göstəricilərinin monitorinq sistemi;<br>• Effektiv nəzarət sisteminin təşkil olunması. | • “dörd göz” prinsipinə uyğun nəzarət mexanizmlərinin qurulması;<br>• Əməliyyat riskləri üzrə müvafiq səlahiyyət bölgüləri, limitlərin təyin edilməsi və mütəmadi nəzərdən keçirilməsi;<br>• Görüşlər təşkil edərək strukturlarla birgə müzakirələr aparmaq;<br>• Daxili/kənar Audit hesabatlarını nəzərdən keçirmək;<br>• bankdaxili normativ sənədlərin hüquqi risk nöqteyi nəzərdən qiymətləndirilməsi;<br>• Müştəri şikayətlərinin analizi;<br>• Daxili Nəzarət sistemlərini təhlil etmək;<br>• Bankın aidiyyatı strukturları tərəfindən periodik təqdim edilən hesabatların təhlili. |

- *Kənar risk* - Üçüncü tərəf və ya təbiətin vurduğu ziyan nəticəsində yaranan risk;

| Kənar risklər üzrə nəzarət tədbirləri | Kənar risklərin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • Kənar təsirlər və fövqəladə hallar üzrə stress testlərin həyata keçirilməsi;<br>• Kiber hücum risklərinin ölçülməsi məqsədilə nüfuzetmə testlərinin həyata keçirilməsi və nəticələrlə bağlı məlumatın aidiyyəti strukturlara təqdim edilməsi. | • Vaxtaşırı təxliyyə təlimlərinin təşkil olunması və nəticələrin analizi;<br>• Əməliyyat sistemi komponentlərinin nüfuzetmə testlərinin aparılması;<br>• Bankın proqram təminatları üzrə kiber hücumlar və kənar müdaxilə cəhdlərinə nəzarət olunması və mütəmadi monitorinqlərin həyata keçirilməsi;<br>• Əməkdaşların mütəmadi təlimatlandırılması və sorğuların keçirilməsi. |

- *Komplayens riski* - Bankın qanunvericiliyə və maliyyə bazarlarını tənzimləyən hüquqi aktların tələblərinə riayət etməməsi nəticəsində üzləşə biləcəyi təsir tədbirləri və sanksiyalar, maliyyə itkiləri və ya nüfuzunun itirilməsi riski, habelə cinayət yolu ilə əldə edilən əmlakdan istifadə edilməsi ilə bağlı maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsində iştirak etməsi nəticəsində yaranan risk;

| **Komplayens riskləri üzrə nəzarət tədbirləri** | **Komplayens risklərinin idarə edilməsində istifadə olunan alətlər:** |
|---|---|
| • Komplayens risklərinin idarə edilməsi məqsədilə bankdaxili normativ sənədlərin hazırlanması;<br>• Bankın komplayens riskinin müəyyən edilməsi, ölçülməsi, monitorinqi və nəzarəti üçün daxili prosedur və metodların müəyyən olunması və adekvatlığının yoxlanılması;<br>• Bank məhsullarının (xidmətlərinin) və biznes proseslərinin qanunvericiliyin və bankdaxili normativ sənədlərin tələblərinə uyğunluğuna nəzarət, habelə yeni bank məhsul və xidmətlərinin hazırlanması proseslərində komplayens funksiyalarını təmin edən struktur bölmə əməkdaşlarının iştirakı;<br>• Bankda maraqlar toqquşması hallarının müəyyən edilməsi, onların qarşısını almaq üçün zəruri tədbirlərin həyata keçirilməsi;<br>• Rüşvətxorluq və korrupsiyaya qarşı mübarizəyə yönəlmiş daxili sənədlərin tələblərinə Bankda riayət olunmasına nəzarətin həyata keçirilməsi;<br>• Komplayens risklərinin əhatə olunduğu yeni tələblərlə əlaqədar bankdaxili kommunikasiyanın təmin olunması;<br>• Bankın fəaliyyət istiqamətinə uyğun olaraq işçilər tərəfindən ölkə qanunvericiliyinin habelə daxili qayda, prosedur və nəzarət mexanizmlərinin tələblərinə əməl edilməsinə nəzarət olunması. | • Davamlı monitorinqin həyata keçirilməsi;<br>• Əməliyyatların icrası zamanı nəzarət mexanizminin təşkili;<br>• Whistleblowing sisteminin təşkili və əməkdaşlar tərəfindən müşahidə etdikləri qanunsuz, qeyri-etik və ya zərərli fəaliyyətləri (korrupsiya, fırıldaqçılıq, qeyri-qanuni fəaliyyətlər, sağlamlıq və ya təhlükəsizlik pozuntuları) ifşa etmələrinə dair məlumatların verilməsinin təşviq edilməsi (Whistleblowing);<br>• Bankdaxili siyasət, qayda və prosedurların vaxtaşırı nəzərdən keçirilməsi, ehtiyac olduqda yenilənməsi;<br>• Müştəri şikayətlərinin analizi və istehlakçıların hüquqlarının Bank tərəfindən qorunmasına nəzarət;<br>• Bankdaxili istifadə üçün nəzərdə tutulan məlumatdan qanunsuz istifadənin və səlahiyyətləri daxilində qiymətli kağızlar bazarında manipulyasiyaların qarşısının alınmasına nəzarət;<br>• Bankın aidiyyatı strukturları tərəfindən periodik təqdim edilən hesabatların monitorinqi;<br>• Komplayens riski ilə əlaqəli insidentlərinin qeydiyyatının aparılması, risk insidentlərinin idarə edilməsinə dair daxili qaydanın hazırlanması; |

| | |
|---|---|
| | • Verilmiş kreditlərin komplayens baxımından monitorinqinin aparılması və onun nəticələrinin aktlaşdırılması;<br>• Yeni məhsul və xidmət, habelə layihələrin komplayens riski baxımından təhlil edilməsi, riskin idarə olunmasına dair təkliflərin verilməsi;<br>• Işçilərə mütəmadi təlimlərin keçirilməsi. |

**4.1.5. Strateji risk** - Bu risk strateji hədəflərin düzgün seçilməməsi, uğursuz biznes planı və strategiyanın düzgün yerinə yetirilməməsi nəticəsində yarana biləcək mümkün itki ehtimalıdır.

| Strateji risklər üzrə nəzarət tədbirləri | Strateji risklərin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • Bankın Strateji Planına uzun müddətli yol xəritəsinə riayət olunmasına nəzarət;<br>• Yeni biznes mühitinə keçidi şərtləndirən iqtisadi, siyasi, sosial və s. trendlərin izlənilməsi (bazarda yeni rəqabət, məhsullar, texnologiyalar, təcrübələr və s.);<br>• Alternativ biznes istiqamətlərinin effektiv qiymətləndirilməsinə nəzarət;<br>• Resurslardan səmərəli istifadənin monitorinqi;<br>• Strateji qərarların səmərəli tətbiq olunmasına nəzarət;<br>• Daxili və kənar audit strukturları tərəfindən zəruri yoxlamaların aparılması və nəticələrə dair hesabatların təqdim olunması. | • Yeni məhsul və xidmətlərin, habelə layihələrin tətbiqi zamanı risk qiymətləndirilməsinin aparılması və strateji risk çərçivəsində rəylərin verilməsi;<br>• Bankın struktur bölmələrinin rəhbərləri və əməkdaşları ilə müsahibələrin keçirilməsi;<br>• Görüşlər təşkil edərək strukturlarla birgə müzakirələr aparmaq;<br>• Bankın biznes proseslərini monitorinq və təhlil etmək;<br>• Müştəri şikayətlərinin analizi;<br>• Daxili Nəzarət sistemlərini təhlil etmək;<br>• Bankın aidiyyatı strukturları tərəfindən periodik təqdim edilən hesabatların monitorinqi. |

**4.1.6. Nüfuz/Reputasiya riski** - Bu risk Banka qarşı etimadın azalması və mənfi ictimai rəy nəticəsində yaranır;

| Nüfuz riskləri üzrə nəzarət tədbirləri | Nüfuz risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • İctimaiyyətdə, mətbuatda və eləcə də sosial şəbəkələrdə Bank barədə yayılan xəbərlərin mütəmadi qaydada monitorinq olunması;<br>• Müştəri məmnuniyyətinin ölçülməsi məqsədilə vaxtaşırı sorğuların keçirilməsi, eləcə də şikayətlərin qeydiyyata alınması, araşdırılması və nəticələrə dair tədbirlərin görülməsi. | • Yeni məhsul və xidmətlərin, habelə layihələrin tətbiqi zamanı risk qiymətləndirilməsinin aparılması və nüfuz riski çərçivəsində rəylərin verilməsi;<br>• Nüfuz riskinin yaranma amillərinin və onların Bankın fəaliyyətindəki riskin müvafiq səviyyəsinə və maliyyə vəziyyətinə təsirinin monitorinqi;<br>• Bankın Risk iştahası Bəyannaməsində nüfuz riskinə dair müəyyənləşdirilən əmsallar;<br>• Elektron və nəşr olunan xəbər mənbələrində Bank barəsində yayımlanan məlumatlara nəzarət olunması və nəticələrə dair hazırlanan media reytinq əmsalları. |

**4.1.7. İnformasiya təhlükəsizliyi riski** - müəyyən informasiya təhlükəsizliyi təhdidi tərəfindən Bankın informasiya təhlükəsizliyinin idarə edilməsində olan zəifliklərdən və ya boşluqlardan potensial istifadə ehtimalı;

| İnformasiya təhlükəsizliyi riskləri üzrə nəzarət tədbirləri | İnformasiya təhlükəsizliyi risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • Banka məxsus olan informasiya aktivlərinin idarə olunması;<br>• Şəbəkə qoşulmalarına nəzarət;<br>• Girişlərə nəzarət;<br>• Məlumatlar ilə iş qaydalarının müəyyən olunması və kriptoqrafiya, şifrələmə tələblərinin tətbiqi;<br>• İnformasiya təhlükəsizliyi üzrə təlimatlandırma;<br>• İnformasiya təhlükəsizliyi ilə bağlı insidentlərin araşdırılması. | • İnsidentlərin araşdırılması, monitorinqi və reyestri;<br>• İnformasiya aktivlərinin təsnifləşdirilməsi;<br>• Yeni məhsul və xidmətlərin, habelə layihələrin tətbiqi zamanı risk qiymətləndirilməsinin aparılması və informasiya təhlükəsizliyi riski çərçivəsində rəylərin verilməsi;<br>• Bankın Risk iştahası Bəyannaməsində informasiya təhlükəsizliyi riskinə dair müəyyənləşdirilən əmsallar. |

**4.1.8. Layihə riski** - bu risk Bankın nəzərdə tutduğu layihələri icra zamanı səhvlər və kənar amillərin təsiri nəticəsində icra edə bilməməsi və ya qarşısına qoyduğu hədəflərə çatmaması kimi qəbul edilir.

| Layihə riskləri üzrə nəzarət tədbirləri | Layihə risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
|---|---|
| • İcra olunacaq layihələrin risk əsaslı prioritetləşdirilməsinin həyata keçirilməsi və icra müddətləri ərzində icra statuslarına və qalıq risklərə nəzarət;<br>• İcraçı strukturlarla kommunikasiyaların aparılması və metodoloji rəhbərlik fəaliyyətində iştirak;<br>• Empirik təhlil, erkən xəbərdarlıq sistemləri, müəyyənləşdirilmiş risklər barədə hesabatlar, analitik təhlil hesabatları. | • Yeni məhsul və xidmətlərin, habelə layihələrin tətbiqi zamanı risk qiymətləndirilməsinin aparılması;<br>• Layihə riskinin minimuma endirilməsi məqsədilə taktiki addımların alternativ (kontingent) planlaşdırılması;<br>• Bankın struktur bölmələrinin rəhbərləri və əməkdaşları ilə müsahibələr keçirmək;<br>• Bankın biznes proseslərini monitorinq və təhlil etmək;<br>• Daxili Nəzarət sistemlərini təhlil etmək;<br>• Bankın aidiyyatı strukturları tərəfindən periodik təqdim edilən hesabatların monitorinqi. |

**4.1.9.** Ekoloji, Sosial və idarəetmə (bundan sonra – **ESİ) riski**- Bankın uzunmüddətli dövr üzrə dayanıqlığının təmin edilməsinə və fəaliyyətinə əhəmiyyətli təsiri olan və ya ola biləcək ekoloji (iqlim dəyişmələri, ətraf mühitin deqradasiyası, ekosistemdə pozuntular və s.), sosial (gender məsələləri, inklüzivlik, əmək münasibətləri, insan resurslarına investisiya və s.) və idarəetmə (təşkilati struktur, mükafatlandırma, işçi münasibətləri, müxtəliflik və bərabərlik və s.) amillərini ehtiva edən maliyyə və qeyri-maliyyə riskləridir.

- *Ekoloji risklər*- İqlim dəyişmələri, ətraf mühitin deqradasiyası və ekosistemdə pozuntular səbəbilə Bankın üzləşə biləcəyi risklər;

- *Sosial risklər*- gender məsələləri, bərabərlik, inklüzivlik, məlumatların qorunması və məxfilik, iş standartları, əmək münasibətləri, insan resurslarına investisiya, yoxsulluğun aradan qaldırılması və cəmiyyətin sosial rifahının təmin olunması, müştəri məmnuniyyəti və bunlarla məhdudlaşmayan digər sosial amilləri ehtiva edən risklər;

- *İdarəetmə riskləri-* Təşkilatı struktur, mükafatlandırma siyasəti, etik məcəllə, korrupsiyaya qarşı siyasət, audit komitəsinin strukturu, işçi münasibətləri, müxtəliflik, bərabərlik və s. amillər aiddir.

| ESİ riskləri üzrə nəzarət tədbirləri | ESİ risklərinin idarə edilməsində istifadə olunan alətlər: |
| --- | --- |
| • Risk yaradan ESİ indikatorları üzrə təhlillərin aparılması;<br>• ESİ amillərinin seçilmiş metodlar və modellər üzrə təhlili və göstəricilərinin monitorinqi;<br>• ESİ amilləri üzrə stress-testlər və ssenarilərin analiz edilməsi;<br>• ESİ riskinin minimallaşdırılması üçün müvafiq tədbirlərin icrasına nəzarət. | • Erkən xəbərdarlıq limitləri<br>• Ssenari təhlili;<br>• Stress-test modellər;<br>• Həssaslıq testləri. |

## 5. Risklərin idarə edilməsi sistemi

**5.1.** Bankda onun əməliyyatlarının növünə, həcminə, fəaliyyətinin xüsusiyyətlərinə və mühitinə, mürəkkəbliyinə və üzləşdiyi risklərə uyğun olaraq risklərin idarə edilməsi sistemi yaradılmışdır.

**5.2.** Risklərin idarə edilməsi sistemi aşağıdakı elementlərdən ibarətdir:

**5.2.1.** Bankın risk iştahası bəyannaməsi;

**5.2.2.** Risklərin idarə edilməsinin təşkilati strukturu;

**5.2.3.** Risklərin idarə edilməsi siyasəti;

**5.2.4.** Bankın müəyyən edilmiş risk limitləri;

**5.2.5.** Yeni məhsul və xidmətlər üzrə risklərin idarə edilməsi;

**5.2.6.** Məlumatların icmallaşdırılması və risk hesabatlılığı;

**5.2.7.** Fövqəladə hallar planı.

## 6. Bankın Risk İştahası Bəyannaməsi

**6.1.** Risk İştahası Bəyannaməsi (bundan sonra- "Bəyannamə") Bankın biznes məqsədlərinə çatması üçün qəbul edəcəyi məcmu risk limitlərinin əks olunduğu sənəddir.

**6.2.** Bankın Biznes Strategiyasına uyğun olaraq, Bank üçün maddi əhəmiyyət daşıyan riskləri tam əhatə edən Bəyannamə tərtib edilməlidir. Bəyannamə ilə Bankın məruz qaldığı riskləri əhatə edən risk iştahasının kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dözümlülük zonaları, habelə kənarlaşmalara qarşı tədbirlər müəyyən edilməlidir. Bəyannaməyə hər təqvim ili başa çatdıqdan sonra növbəti ilin

birinci rübü ərzində ötən ilin nəticələri əsasında yenidən baxılmalı və tələb olunduqda müvafiq dəyişikliklər edilməlidir. Bəyannamənin göstəricilərinin dözümlülük zonalarına uyğunluğu aylıq əsasda monitorinq olunmalıdır.

## 7. Risk Limitləri

**7.1.** Bankın risk limiti hər bir fəaliyyət növü üzrə qəbul edilən riskin maksimal həddini ehtiva edir.

**7.2.** Bankın risk iştahasına uyğun olaraq, risk limitləri Bankın ölçüsünə, risk profilinə, fəaliyyət istiqamətlərinə uyğun olaraq ümumi Bank üzrə müəyyən edilməlidir. Müşahidə Şurasının təsdiq etdiyi risk limitləri daxilində İdarə Heyəti tərəfindən alt limitlər təsdiq edilə bilər. Risk limitləri daim monitorinq edilməli, mövcud bazar şərtlərinə və Bankın strategiyasına uyğun olaraq onların dəyişdirilməsi təmin edilməlidir.

## 8. Yeni məhsul və xidmətlər üzrə risklərin idarə edilməsi

**8.1.** Bank məhsulu və xidməti, onun tərəfindən həyata keçirilən fəaliyyət növlərinin təqdimedilmə üsuludur.

**8.2.** Bankda yeni məhsul və ya xidmət təqdim edilərkən, o cümlədən layihələrin icrasına başlanarkən qabaqcadan və təqdim olunduqdan sonra bunun Bankın strategiyasına uyğunluğunun və risk profilinə təsirinin təhlili aparılmalı, habelə əlaqəli risklər müəyyən edilməlidir. Qiymətləndirmələr risklərin idarə edilməsi funksiyalarını həyata keçirən struktur bölmələri tərəfindən aparılmalı və qiymətləndirmə nəticələri Riskləri İdarəetmə Komitəsinə təqdim edilməlidir.

## 9. Risklərin idarə edilməsinin təşkilati strukturu

**9.1.** Bankda risklərin idarə edilməsinin təşkilati strukturu risklərin idarə edilməsi üzrə dəqiq müəyyənləşdirilmiş səlahiyyət və məsuliyyətləri, təşkilati strukturun bütün səviyyələri arasında əlaqə və məlumat axınını, struktur bölmələr və səlahiyyətli şəxslər arasında maraqlar münaqişəsinin yaranmasına qarşı tədbirləri, müstəqil və şəffaf qərar qəbuletmə prosesini və səmərəli hesabatlıq sistemini təmin edir.

**9.2.** Bankda risklərin idarə edilməsi prosesi aşağıda göstərilmiş iyerarxik və funksional çərçivədə qurulmuşdur:




**9.3.** Risklərin idarə edilməsi prosesinin iştirakçıları aşağıdakılardır:

**9.3.1.** Müşahidə Şurası və ona hesabat verən Komitələr;

**9.3.2.** Riskləri İdarəetmə Komitəsi;

**9.3.3.** İdarə Heyəti və ona hesabat verən Komitələr;

**9.3.4.** Baş Risk İnzibatçısı;

**9.3.5.** Risklərin İdarə Edilməsi İdarəsi;

**9.3.6.** Risk sahibləri.

**9.4.** Risklərin idarə edilməsi prosesinin iştirakçılarının ümumi olaraq səlahiyyət bölgüsü aşağıdakı kimidir:

| İştirakçı(lar) | Səlahiyyətlər, Rol və Məsuliyyətlər |
|---|---|
| **Müşahidə Şurası** | • Müşahidə Şurası Bankın, habelə risklərin idarə edilməsində bilavasitə iştirak edən struktur bölmələrinin qanunvericiliyə müvafiq qaydada fəaliyyət göstərməsinə nəzarət edir.<br>• Risklərin idarəedilməsi sisteminin yaradılmasının təmini, risklərin idarə edilməsi üzrə siyasətin, daxili qaydaların və təşkilati strukturun, risk iştahası bəyannaməsinin, dözümlülük zonalarının, risk limitlərinin və fövqəladə hallar planının, habelə onlara dəyişikliklərin təsdiqi, risklərin idarə edilməsi ilə bağlı İdarə Heyətinin işinə nəzarət, risklərin idarə edilməsi sisteminin effektivliyinin ən azı ildə bir dəfə qiymətləndirilməsi Müşahidə Şurası tərəfindən həyata keçirilir.<br>• Müşahidə Şurası Risklərin idarə edilməsi funksiyasını həyata keçirən struktur bölmələrin rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir.<br>• Baş Risk Inzibatçısı ilə azı rübdə bir dəfə və ya zərurət olduqda növbədənkənar şəkildə görüş keçirir.<br>• Risklərin idarə edilməsinin strateji planlaşdırmada nəzərə alınmasına və Bankın idarə edilməsinin müxtəlif səviyyələrinə inteqrasiyasına nəzarət edir. |
| **Riskləri İdarəetmə Komitəsi** | • Bankın risk iştahası bəyannaməsinə, risklərin idarə edilməsi siyasətinə və qaydalarına, risk limitlərinə, habelə onlara dəyişikliklərə baxır və təsdiq olunmaq üçün Müşahidə Şurasına təqdim edir;<br>• Risklərin idarə edilməsi modellərini, dözümlülük zonalarını, riskin təsir miqyası və ehtimalını, “istilik” xəritələrini (ing. heat map), risk reytinqini nəzərdən keçirir.<br>• Risk qiymətləndirmələrini qəbul edir, risk səviyyələrinin müəyyən edilmiş dözümlülük zonaları çərçivəsində saxlanılması, riskin idarə edilməsi istiqamətində direktivlər verir, riskin aradan qaldırılması metodlarını seçir.<br>• Məcmu və ayrı-ayrı risk növləri üzrə Bankın cari və gələcəkdəki risk iştahasına dair Müşahidə Şurasına təkliflər verir;<br>• Bankın fəaliyyətinin risklərin idarə edilməsi siyasətinə uyğunluğunu təmin edən prosedurların mövcudluğuna, habelə İdarə Heyəti tərəfindən risk iştahası bəyannaməsinin tətbiqinə nəzarət edir;<br>• Bankın risk mədəniyyətinin vəziyyətinə dair Müşahidə Şurasına hesabat verir;<br>• Baş Risk İnzibatçısı ilə əməkdaşlıq edir və onun fəaliyyətinə |

| | |
|---|---|
| | nəzarət edir;<br>• Kapital və likvidliyin idarəedilməsi üzrə Bankın hədəflərinin, habelə Banka xas bütün risklərin, o cümlədən kredit, bazar, əməliyyat, reputasiya və digər risklərin Bankın risk iştahasına uyğunluğuna nəzarət edir;<br>• Baş risk inzibatçısından və aidiyyəti struktur bölmələrdən Bankın cari risk profili, risk mədəniyyətinin cari vəziyyəti, risk iştahası və risk limitlərinin istifadəsi, risk limitlərinin pozulması halları və risklərin azaldılması tədbirlərinə dair hesabat alır.<br>• Risklərin idarə edilməsi funksiyasını həyata keçirən struktur bölmələrin rəhbərlərinin təyin edilməsi ilə bağlı Müşahidə Şurasına təqdimat verir.<br>• Bankın risk profili ilə bağlı hesabatları və risklərin azaldılması ilə bağlı hazırlanmış tədbirlər planını nəzərdən keçirir. |
| **İdarə Heyəti** | • Risklərin idarə edilməsi siyasətini və qaydalarını nəzərdən keçirir, onların Bankın məqsədlərinə, normativ tələblərinə və qabaqcıl təcrübələrə uyğunluğunu təmin edir;<br>• Bankın, habelə risklərin idarə edilməsində bilavasitə iştirak edən struktur bölmələrinin qanunvericiliyə müvafiq qaydada fəaliyyət göstərməsini təmin edir;<br>• Bankın digər struktur bölmələrinin risklərin idarə edilməsi funksiyasını həyata keçirən struktur bölmələri ilə əməkdaşlığını təmin edir, habelə onların fəaliyyətinə müdaxilələrin qarşısını almaq üçün tədbirlər görür;<br>• Risklərin idarə edilməsi siyasətinin həyata keçirilməsini təmin edir;<br>• Bankın məruz qaldığı riskləri təhlil edir və aşkar edilən zəifliyin aradan qaldırılması üçün zəruri tədbirlər görür;<br>• Risklər və onların idarə edilməsinə dair Riskləri İdarəetmə Komitəsinə hesabatları təqdim edir;<br>• Risklərin İdarə Edilməsi İdarəsinin Bankın risklərinə adekvat şəkildə fəaliyyəti üçün müvafiq şərait yaradır;<br>• Fövqəladə hallar planına Riskləri İdarəetmə Komitəsi ilə birgə baxır və Müşahidə Şurasına təqdim edir;<br>• Müşahidə Şurasının təsdiq etdiyi risk limitləri daxilində alt limitlər təsdiq edir;<br>• Bankın risk iştahasına uyğun olaraq, risk və gəlirlilik arasında tarazlığı təmin edir;<br>• Bankın risk göstəricilərinin müəyyən edilmiş risk iştahası çərçivəsində saxlanılmasına nəzarət edir; |

| | |
|---|---|
| **Baş Risk İnzibatçısı** | • Risklərin idarə edilməsi funksiyasına nəzarəti həyata keçirir;<br>• Risklərin idarə edilməsi funksiyasını həyata keçirən struktur bölmələr tərəfindən təqdim edilən risk profili ilə bağlı hesabat və məlumatları nəzərdən keçirir və müvafiq idarəetmə orqanına təqdim edir.<br>• Müşahidə Şurasına, Riskləri İdarəetmə Komitəsinə, İdarə Heyətinə risklər barədə qanunvericiliklə müəyyən olunmuş qaydada dəqiq, tam və vaxtında hesabat təqdim edilməsini təmin edir;<br>• İdarə Heyətinin rəyini nəzərə almaqla risklərin idarə edilməsi siyasətini hazırlayır və Riskləri İdarəetmə Komitəsinə təqdim edir;<br>• Risklərin idarə edilməsi üzrə İdarə Heyəti və struktur bölmələrin fəaliyyətini əlaqələndirir;<br>• Aylıq əsasda risk limitlərinin monitorinq nəticələri, habelə bankın risk profili ilə bağlı İdarə Heyətinə hesabat verir;<br>• Risk iştahası göstəriciləri üzrə kənarlaşmalar baş verdikdə səbəbləri göstərilməklə bu barədə Müşahidə Şurasını və Riskləri İdarəetmə Komitəsini dərhal məlumatlandırır.<br>• Pozuntu halında riskin azaldılması və ya risk limitlərinin bazar şəraitinə uyğunlaşdırılması üzrə tədbirlər planını ən geci növbəti ayın monitorinq nəticələri ilə birlikdə Müşahidə Şurasına və Riskləri İdarəetmə Komitəsinə təqdim edir;<br>• Bankın fəaliyyətinə aid risklərin növlərini və ölçüsünü göstərən dövri hesabatların etibarlı, şəffaf, kompleks şəkildə və vaxtında hazırlanmasını təmin edir;<br>• Risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi üzrə təklifləri Müşahidə Şurasına və Riskləri İdarəetmə Komitəsinə təqdim edir.<br>• Bankın məruz qaldığı risklərin onun riskgötürmə qabiliyyətinə uyğunluğunu təmin edir;<br>• Risklərin idarə edilməsi funksiyasını həyata keçirən struktur bölmələrin əməkdaşlarının bilik və bacarıqlarının artırılması istiqamətində tədbirlər görür;<br>• Risk iştahası bəyannaməsinə baxılmasında, habelə risklərin idarə edilməsi ilə əlaqədar məsələlərin müzakirə olunmasında Müşahidə Şurasının iclaslarında iştirak edir.<br>• Baş risk inzibatçısı İdarə Heyətinin iştirakı olmadan, Müşahidə Şurası, Risklərin İdarəetmə Komitəsi və ya Müşahidə Şurasının müstəqil üzvü ilə görüş keçirə bilər.<br>• Baş risk inzibatçısı kreditlərin verilməsi, investisiyalar və yeni məhsullara dair qərarlara etiraz edə bilər (veto qoya bilər). |

| | |
|---|---|
| **Risklərin İdarə Edilməsi İdarəsi** | • Risklərin İdarə Edilməsi İdarəsi risklərin idarə edilməsi proqramını həyata keçirir və onu idarə edir.<br>• Bütün müdafiə xətləri üzrə kommunikasiyanı, məlumatların icmallaşdırılmasını, habelə Riskləri İdarəetmə Komitəsinin göstərişi ilə rəhbərliyə təqdim edilməsi üçün müvafiq məlumat və risk hesabatlılığını təmin edir.<br>• Risk nöqteyi nəzərdən rəy və tövsiyələr verir və zəruri təkmilləşdirmələri təşkil edir;<br>• Risk iştahası bəyannaməsini və bəyannamə üzrə müvafiq dəyişiklikləri tərtib edir;<br>• Risk iştahası bəyannaməsinin Bankda müdafiə xətlərinə müvafiq qaydada bölgüsünü təmin edir, aidiyyatı struktur bölmələr üzrə hədləri (ing. "playing field") müəyyən edir;<br>• Risk matrisi yaradır və idarə edir;<br>• Risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsini həyata keçirir, aşkarlanmış risklərin minimallaşdırılması prosesində aidiyyəti struktur bölmələrlə birlikdə iştirak edir; risklərin monitorinqini, risk hesabatlılığını və risklərin idarə edilməsinə dair qərarvermə üçün zəruri məlumatların dəqiq, tam və vaxtında təmin edilməsini təşkil edir;<br>• Bankda risk mədəniyyətini müdafiə xətləri üzrə qiymətləndirir və yüksəldilməsi üzrə tədbirlər həyata keçirir.<br>• Bank üzrə baş vermiş risk hadisələri barədə məlumatların toplanılması, qeydiyyatının aparılmasını, onların faktiki və mümkün itkilər üzrə qiymətləndirilməsi və bu barədə müvafiq hesabatlılığın hazırlanmasını təmin edir;<br>• Əsas risk indikatorlarını müəyyənləşdirir, tətbiq edir və onların təhlilini aparır;<br>• Bankın strateji hədəflərinə uyğun risk iştahasının müəyyənləşdirilməsi ilə bağlı təkliflər verir;<br>• Bank üzrə qərarların risk iştahasına uyğunluğunu təmin edir;<br>• Risk iştahasına dair limit pozuntularının vaxtında aşkarlaması üçün alətlər hazırlayır, təyin edilmiş limitləri davamlı olaraq monitorinq edir, pozuntuların qarşısının alınmasına dair qabaqlayıcı tədbirlər görür, pozuntu halında təsirin azaldılmasına dair təkliflər verir, pozuntular barədə Baş Risk İnzibatçısını məlumatlandırır;<br>• Bankda risk iştahasının, strategiyanın və resursların uyğunluğunu təmin edir. |
| | |

| | |
|---|---|
| **Risk sahibləri** | • Risk sahibləri, risklərin idarə edilməsi prosesində Bankın biznes funksiyalarını həyata keçirən birinci müdafiə xəttini təşkil edən struktur bölmələri -biznes bölmələridir. Risk sahibləri təyin olunmuş riski daşıyan biznes prosesinə dair riskləri öz səlahiyyəti daxilində müəyyən etmək, idarə etmək, müvafiq siyasət və qaydaları tətbiq etmək, riski azaltmaq, təhlil etmək, hesabat vermək və aidiyyəti risk limitlərinə riayət olunmasını təmin etməyə görə məsuliyyət daşıyırlar.<br>• Risk sahibləri təyin olunmuş risklər üzrə peşəkar ekspertizanı təmin edir, həmin risklərin idarə olunması prosesinin effektivliyini müəyyən edir və effektivliyinə nəzarət edir, təyin edilmiş risklərin idarə edilməsi, aradan qaldırılması, monitorinqi və hesabatlılığı istiqamətində standartların, nəzarət tədbirlərinin, alətlərin və metodların qurulmasında iştirak edir. |

**9.5.** Risklərin idarə edilməsi funksiyasının iştirakçıları tənzimləyici orqanın tələbləri, Bankın nizamnaməsi, Bankın struktur bölmələri haqqında əsasnamələr, vəzifə təlimatları və bankdaxili normativ sənədlər ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində onlara həvalə edilmiş funksiya və vəzifələri yerinə yetirirlər.

## 10. Risklərin idarə edilməsi sisteminin müdafiə xətləri

**10.1.** Bankın risklərin idarə edilməsi sistemi üzrə müdafiə xətləri effektiv risklərin idarə edilməsi və nəzarət prosesləri sistemini qurmaq üçün istifadə olunan risk idarəetmə modelidir. Bu model şəffaflığı, hesabatlılığı və uyğunluğu təşviq edərkən risklərin müvafiq şəkildə müəyyən edilməsini, qiymətləndirilməsini və idarə olunmasını təmin etməyə kömək edir.

**10.2.** Korporativ prinsiplərə uyğun olaraq, Risklərin idarə edilməsi sistemi özündə aşağıdakı üç əsas müdafiə xəttini birləşdirir:



**10.2.1. Birinci müdafiə xətti:** Fəaliyyətləri Banka birbaşa risklər yaradan və məhsul, xidmət, fəaliyyət, proses və sistemlər üzrə risklərin ilkin mərhələdə müəyyənləşdirilməsi, qiymətləndirilməsi, idarə edilməsi, hesabatlığı və monitorinqinə məsul struktur bölmələr, o cümlədən Bankın müştərilərinə xidmət göstərən, məhsul və xidmətlərin inkişafını həyata keçirən struktur bölmələr, habelə Bankın filial və şöbələri daxildir;

**10.2.2. İkinci müdafiə xətti:** Bankda risklərin idarə edilməsi və komplayens funksiyalarını həyata keçirən struktur bölmələr daxildir;

**10.2.3. Üçüncü müdafiə xətti:** Birinci və ikinci müdafiə xəttini qiymətləndirmək səlahiyyəti olan Bankın daxili audit funksiyasını həyata keçirən struktur bölməsi daxildir.

## 11. Fövqəladə hallar planı

**11.1.** Fövqəladə hallar planı Bankın davamlı fəaliyyəti və gündəlik hesablaşmaların fasiləsizliyinin təmin edilməsi məqsədi ilə həyata keçirilməsi nəzərdə tutulan və əvvəlcədən hazırlanmış tədbirlər toplusudur.

**11.2.** Bankda fövqəladə hallarda yaranan risklərin qarşısının alınması üçün və bankın davamlı biznes fəaliyyətinin təmin olunması məqsədi ilə həyata keçiriləcək tədbirləri özündə əks etdirən fövqəladə hallar planı tərtib olunur.

**11.3.** Planda fövqəladə halların təsnifləşdirilməsi, məsul şəxslərin səlahiyyətləri, risklərə qarşı tədbirlər, cəlb ediləcək kapital vəsaitlərinin mənbəyi, nüfuz riskindən qorunma siyasəti, bank əməliyyatlarının və fəaliyyət növlərinin əhəmiyyət dərəcəsi üzrə təsnifləşdirilməsi öz əksini tapmalıdır.

**11.4.** Bankda risk hadisələri üzrə ehtimal olunan nəticələri faktiki nəticələrlə müqayisə etməklə fövqəladə hallar planında nəzərdə tutulmuş tədbirlərin adekvatlığının qiymətləndirilməsi üçün yoxlamalar (sınaq test) bankdaxili qaydalarla müəyyən edilmiş dövriliklə həyata keçirilir.

**11.5.** Bankın fövqəladə hallar planına ən azı ildə bir dəfə yenidən baxılır və zərurət olduqda müvafiq dəyişikliklər edilir.

## 12. Məsuliyyət

**12.1.** Bankda risklərin idarə edilməsi prosesinin bu siyasətin tələbləri çərçivəsində qurulmamasına görə səlahiyyətləri çərçivəsində Bankın müvafiq əməkdaşları məsuliyyət daşıyırlar.

## 13. Yekun müddəalar

**13.1.** Bu Siyasət Bankın Müşahidə Şurasının qərarına müvafiq olaraq qüvvəyə minir.

**13.2.** Bu Siyasətə əlavə və dəyişikliklər Müşahidə Şurasının qərarı ilə edilir.

**13.3.** Siyasətin hər hansı müddəasının etibarsızlığı bütövlükdə Siyasətin və onun hər hansı digər müddəalarının etibarsızlığına gətirib çıxarmır.